**Əlavə 2.**

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin**
**“ 26” aprel 2016-cı il tarixli**
**166 №-li əmri ilə təsdiq edilmişdir.**

## “Lütfi Zadə adına Bakı şəhəri məktəblilərarası I Məntiq Olimpiadası”nın 2015\2016-cı tədris ili üçün keçirilmə

## Qaydaları

### 1. Ümumi müddəalar

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən son dövrlərdə aparılan islahatlar, Milli Kurikulum proqramının tətbiqi və proqrama uyğun nəşr olunmuş məktəb dərsliklərinə, TQDK (DİM) və xarici ölkələrdə ali təhsil ocaqlarına aparılan qəbul sistemi tərəfindən qoyulmuş tapşırıqların həllində birbaşa məntiqi təfəkkür və məntiqi yanaşma tələb olunur.

Eyni zamanda beynəlxalq olimpiadalar, respublika fənn olimpiadalarında da iştirakçıların uğur qazanması onların məntiqi təfəkküründən də asılıdır. Bu kimi hallar bir daha təsdiqləyir ki, məntiqi təfəkkür, məntiqi çalışma və tapşırıqları həll etmə vərdişləri şagirdlərdə kiçik yaşlardan inkişaf etdirilməlidir. Odur ki, davamlı yarışlar, müsabiqələr və olimpiadaların keçirilməsi bu vərdişlərin formalaşmasına xidmət edir. Nəzərdə tutulmuş “Bakı şəhəri məktəblilərarası I Respublika Məntiq Olimpiadası” bu istiqamətdə atılacaq uğurlu addımlardan biridir.

Dünya təcrübəsi onu göstərir ki, istər inkişaf etmiş ölkələr, istərsə inkişaf etməkdə olan ölkələrdə uğurlu təhsil sisteminin formalaşdırılması və ya təhsil sistemində nəzərdə tutulan islahatların aparılması digər sahələrə nisbətən daha mürəkkəb və uzun zaman tələb edən prosesdir. Bu prosesin əsasını birmənalı şəkildə uğurlu kadrlar, müəllim və şagirdlər təşkil edir. Hər bir təhsil sistemi sərmayə edəcəyi müəllim və şagirdi düzgün müəyyənləşdirməklə gələcək planlarının icrası istiqamətində düzgün addım atmış olur.

Olimpiadaların bu istiqamətdə əhəmiyyəti də danılmazdır. İcrası nəzərdə tutulmuş “Lütfi Zadə adına Bakı şəhəri məktəblilərarası I Məntiq Olimpiadası” da istedadlı, məntiqi təfəkkürü daha yaxşı inkişaf etmiş şagirdlərin üzə çıxmasına xidmət edəcəkdir.

**2. Olimpiadanın vəzifələri**

1. Şagirdlərin məntiqi biliklərinin artmasına təkan vermək;
2. Şagirdlərə beynəlxalq, yerli olimpiadalar və bu kimi tədbirlərdə iştirak təcrübəsini qazandırmaq;
3. İstedadlı, xüsusi ilə məntiqi təfəkkürü daha yaxşı inkişaf etmiş şagirdləri aşkar etmək;
4. Şagirdlərin həvəsləndirilməsi və elmə olan marağının artırılmasına müsbət təsir etmək;
5. BŞTİ və İSTƏK liseyinin birgə yeni bir ənənəsinin, olimpiadanın, bilik yarışlarının əsasını qoymaq.

**3. Olimpiadanın keçirilmə qaydaları**

Olimpiada Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan bütün ümumi təhsil məktəblərində həyata keçiriləcəkdir. Olimpiada məktəblilər arasında məntiq fənninə olan marağı artırmaqla, onların məntiqi təfəkkür və düşüncə tərzinin, şəxsi keyfiyyətlərinin formalaşmasına, diqqət, qavrama, hafizə və nitq kimi vacib bacarıqlarının inkişafına müsbət təsir göstərəcək, eyni zamanda istedadlı və məntiqi təfəkkürü daha yaxşı inkişaf etmiş şagirdlərin aşkarlanmasına xidmət edəcəkdir.

İki mərhələdən ibarət qaydada keçirilən olimpiada çərçivəsində ilk mərhələ 30.04.2016 tarixdə məktəbdaxili keçiriləcəkdir. İlk mərhələnin nəticələrinə görə turu adlamış şagirdlər final mərhələsində iştirak hüququ əldə edəcəklər. Final mərhələ 15.05.2016 tarixində eyni qaydalar saxlanılmaqla həyata keçiriləcəkdir.

Olimpiada zamanı şagirdlərə xas olan aşağıdakı məntiqi təfəkkür növlərinin qiymətləndirilməsi nəzərdə tutulur:

1.Bədii məntiqi təfəkkür

2. Mücərrəd məntiqi təfəkkür

3. Verbal məntiqi təfəkkür

**3.1. Olimpiadanın ilk turunda iştirak qaydaları**

a. Şagird www.mentiq.istek.edu.az elektron saytında onlayn qeydiyyatdan keçirilməlidir. Əks təqdirdə onun əldə etdiyi nəticələr etibarsız sayılacaq. Qeydiyyatın son tarixi 28.04.2016-cı ildir.

b. Məktəblərin 5 və 6-cı siniflərinin hər iki (Azərbaycan və rus) bölməsinin şagirdləri iştirak etməlidir. İştirakçıların yaş həddi 11-12 yaş qrupuna aid olmalıdır (16 aprel 2016-cı il tarixinə qədər 10 yaşı tamam olmamış, habelə 13 yaşından böyük şagirdlər müsabiqəyə buraxılmır).

c. Olimpiada bütün məktəblərdə 10:00-da başlayıb, 11:30-dan gec olmayaraq bitməlidir.

d. Olimpiada bitdikdən sonra şagirdlərin cavabları toplanaraq məktəb rəhbərliyinin təyin etdiyi məsul şəxslər tərəfindən Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən yaradılan və məktəblərə qabaqcadan verilən sistemə yüklənilməlidir. Məktəblilərin nəticələri BŞTİ tərəfindən məktəblərə göndəriləcəkdir.

**3.2. Olimpiadanın final mərhələsi**

Final mərhələsində ilk turu uğurla keçən şagirdlər iştirak edəcək və Olimpiadanın Təşkilat Komitəsi tərəfindən müəyyən edilmiş ünvanda eyni qaydada həyata keçiriləcək. İlk turda olduğu kimi final mərhələdə də 30 sualdan ibarət test toplusunun həll edilməsi üçün 1,5 saat ayrılacaqdır.

**4. Olimpiadanın təşkili məsələləri**

| № | Mərhələlər | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1 | Məktəblərin məlumatlandırılması (əmrin məktəblərə göndərilməsi) | 22.04.2016 | BŞTİ |

| | | | |
|---|---|---|---|
| 2 | Məlumatların saytda yerləşdirilməsi | 22.04.2016 | BŞTİ/İstək liseyi |
| 3 | Şagirdlərin qeydiyyatdan keçirilməsi | 22-28.04.2016 | Məktəblər |
| 4 | Nümunəvi testlərin saytda yerləşdirilməsi | 23.04.2016 | İstək liseyi |
| 5 | Ilk turun sullarının məktəblərə göndərilməsi | 29.04.2016 | BŞTİ |
| 6 | Olimpiadanın ilk turunun keçirilməsi | 30.04.2016 | Məktəblər |
| 7 | Olimpiadanın ilk turunun nəticələrinin məktəblər tərəfindən onlayn şəkildə sistemə yüklənilməsi | 01.05.2016 | Məktəblər |
| 12 | İlk turun nəticələrinin açıqlanması (sayta yerləşdirilməsi) | 02.05.2016 | BŞTİ/İstək liseyi |
| 15 | Final mərhələsinin keçirilməsi | 15.05.2016 | İstək liseyi |
| 16 | Nəticələrin açıqlanması | 16.05.2016 | İstək liseyi |
| 17 | Mükafatlandırma | 26.05.2016 | BŞTİ, İstək liseyi |

**5. Mükafatlandırma.**

Final mərhələsinin nəticələrinə dair hesablamalar bitdikdən sonra Olimpiadanın Bakı şəhərində təntənəli bağlanış mərasimi keçiriləcək və Bakı şəhəri üzrə ən yüksək məntiqi təfəkkür nəticəsi nümayiş etdirən məktəblilər mükafatlandırılacaqdır.